# "Ənənəvi dəyərlərin və ailə institutunun qorunması təhsil prosesində vacib amil kimi" mövzusunda konfrans



**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Bakı Dövlət Universitetinin birgə təşkilatçılığı ilə "Ənənəvi dəyərlərin və ailə institutunun qorunması təhsil prosesində vacib amil kimi" mövzusunda konfrans keçirilib. 15 May - Beynəlxalq Ailə Gününə həsr edilən konfrans "Milli dəyərlərimizdən gələcəyə baxış" layihəsi çərçivəsində təşkil olunub. Tədbirdə deputatlar, dövlət qurumlarının nümayəndələri, universitetin müəllim heyəti, elm xadimləri və media nümayəndələri iştirak ediblər.**

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, ailə cəmiyyətin dayağıdır. Ailənin möhkəmləndirilməsi bu gün mühüm prioritetlərdən biridir: "Komitədə "Ailə Konsepsiyası"nın hazırlanması istiqamətində mühüm iş aparılır. Bu həm də sözügedən istiqamətdə inkişafa nail olmaq üçün bir növ yol xəritəsi rolunu oynayacaq. Azərbaycan ailəsi tarixi dəyərlər əsasında formalaşıb. Bu gün ailə cəmiyyətin sarsılmaz sütunlarından biridir. Prezident İlham Əliyev daim vurğulayır ki, bu sahədə görülən işlər məhz dövlətin sabitliyinin qorunması baxımından da mühüm əhəmiyyət kəsb edir. Bu kontektdə müvafiq qurumların üzərinə böyük məsuliyyət düşür".

Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev qeyd edib ki, Azərbaycan xalqının adət-ənənələri, milli-mənəvi və əxlaqi dəyərləri olduqca zəngindir: "Müstəqil dövlətimiz və qədirbilən xalqımız tarixin yaddaşından süzülüb gələn, milli şüuru və milli ruhu özündə ehtiva edən bu mənəvi xəzinəni daim qoruyur, yaşadır və nəsildən-nəslə ötürür. Bu gün dünyanın bir çox ölkələrində milli kimliyin və mənəvi dəyərlərin itirildiyi, ailə institutunun ciddi böhran keçirdiyi qloballaşma dövründə, yeni reallığa qədəm qoymuş ölkəmizdə yeniyetmə və gənclərin layiqli şəxsiyyət və vətəndaş kimi formalaşmasında milli-mənəvi dəyərlərin qorunub saxlanması, geniş tədqiq və təbliği mühüm əhəmiyyət kəsb edir".

Tədbir çərçivəsində dövlətimizin ailə institutlarının inkişafını daim diqqətdə saxlaması vurğulanıb. Milli Məclisin deputatı Mehriban Vəliyeva deyib: "Prezident İlham Əliyev daim öz çıxışlarında gənc nəslin tərbiyəsində ailənin, məktəbin rolunu vurğulayır. Ailə dəyərləri bəzən müəyyən təsirlərə məruz qalır. Ona görə də bu dəyərləri qorumaq məqsədilə ailə institutlarının üzərinə mühüm məsuliyyət düşür. Bununla yanaşı, təhsildə ailə institutunun əhəmiyyəti vurğulanmalıdır. Son dövrlər iki dəyərin arasında uçurum yaratmağa çalışırlar. Amma biz bunların qarşısını almalıyıq".

Tədbir Beynəlxalq Ailə Gününün əhəmiyyəti və ölkəmizdə ailələrin inkişafı istiqamətində atılan addımlar barədə fikir mübadilələri ilə davam etdirilib.

Qeyd edək ki, tədbirin keçirilməsində əsas məqsəd ailə institutunun nüfuzunun qorunması və inkişafına, cəmiyyətdə milli-mənəvi dəyərlərin möhkəmləndirilməsi və gənc nəsil arasında təbliğ olunmasına töhfə vermək, eyni zamanda qeyd edilən məsələlərin təhsil prosesində öz əksini tapmasını təşviq etməkdir.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**